# Toğrul Nərimanbəyovun yaradıcılığında nəğməli rəngkarlıq



Böyük rəssam, dünya miqyaslı sənətkar, həmçinin gözəl səsin sahibi olan Toğrul Nərimanbəyov teatrı, onun qeyri-adi aurasını hər bir tamaşaçının sehrli musiqi və oyun dünyası ilə təmasda ola biləcəyi məkanı daim sevib. Onun yaradıcılığı da teatrı xatırladır, əsərləri sanki bir nağıldır. Allahın bu şəxsiyyətə bəxş etdikləri arasında gözəl səsi, rəssamlıq istedadını və doğma torpağa sadiq ürəyi xüsusilə qeyd etmək lazımdır. Dahi fırça ustası 1930-cu il avqustun 7-də Bakıda doğulub. Ata tərəfdən əcdadları şuşalı – qarabağlıdır, onun gözəl səsə sahibliyinin səbəbi də məhz bu torpaqdan rişələnməsidir. Sənətkarın ilk müəllimi tanınmış rəssam Kamil Xanlarovdur. 1946-cı ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinin təsviri sənət fakültəsinə daxil olur. Bu təhsil ocağını bitirdikdən sonra 1950-ci ildə təhsilini Litva Dövlət Rəssamlıq İnstitutunda davam etdirmək qərarına gəlir. Nərimanbəyov burada vokal sənəti ilə də məşğul olur.

> **Rəssamın musiqili həyatı, klassik müğənni kimi inkişaf mərhələləri bütün rəsm kompozisiyalarında öz əksini tapmışdır. Onun əsərləri başdan-başa musiqidir, təsviri sənətinin əksi – nəğmələrdir. Bakının qədim tikililəri, Şirvanşahlar sarayı, Təbriz miniatür sənətinin cazibədar epik-major, lirik-minor ahəngi uşaqlıq yaddaşında və yaradıcılığında dərin izlər buraxmışdır.**

Sənətkarın musiqili tablolarından olan "Aşıq"da sazı sinəsinə qoyub ifa edən el sənətkarı elə bil həzin melodiya dəryasına baş vurub – gözlərindəki işıq, mənalı mimikası sanki əsəri canlandırır.

Nərimanbəyovun 1965-ci ildə işlədiyi "Muğam" kompozisiyası isə Azərbaycan təsviri sənətinin şah əsəri hesab olunmaqla yanaşı, müəllifin ən tanınan tablolarından biridir. Rəssam, özünü unudaraq can-dildən xalq alətlərində muğam ifa edən musiqiçilər triosunu qəsdən xalça üzərində təsvir etməklə fiqurları yerdən bir qədər yuxarıda yerləşdirib. Qıraqda dayanan, əlində nar meyvəsi tutmuş milli paltarlı balaca qız musiqi dinləyir. Sənətkar özü qeyd edir ki, mən muğama qulaq asanda kövrəlirəm.

1970-ci ildə yaratdığı "Mahnı" əsərində (kətan, yağlı boya) Azərbaycan toyu təsvirlənib. Burada milli adət-ənənələr, Azərbaycanın xalq rəqsi "Vağzalı"nı ifa edən musiqiçilərin daxili aləminin ifadəsi verilib. Trioda olan obrazların qədim papaqlarından istifadə ilə bir növ əsərin gözəlliyi, ifadəliliyi, milliliyi daha da qabardılıb.

"Buzovnada bayram"ı seyr edəndə ilk baxışda adama elə gəlir ki, tablo lazımsız xırda fiqurlar, detallar və rəngli ləkələrlə həddən ziyadə yüklənib. Lakin əsərin musiqili ovqatı tədricən adamın hisslərinə hakim kəsilib onu öz ağuşuna alır. Açıq-aydın görürsən ki, hər şey canlıdır, hər şey qədim adətlərlə öz ömrünü yaşayır. Tabloda Buzovna kəndinin bayram ovqatının bir anı təsvir edilmişdir: mahir el sənətkarları yandırıb-yaxan qədim rəqs havası çalırlar, qara zurnanın ecazkar səsi ruhu yerindən oynadır. Elə buna görə qoca da, cavan da özünü saxlaya bilməyib yerində oynayır. Onlardan bir qədər aralı dayanmış qadınlar da şadyanalığa qoşulublar. Qocaların baxışlarında gənclik havası duyulur.

O, 1978-ci ildə daha bir nəhəng layihəyə – "Moskva" mehmanxanası zalının divarlarının bəzədilməsi üzərində işə başlayır. Burada müəllifin seçdiyi "Aşığın nəğməsi" mövzusu süjet kompozisiyasına ənənəvi baxışı ilə səsləşir. Divarların geniş sahəsini dalğavarı canlı ağac budaqları ilə örtən rəssam başlıqların su ünsürü ilə doldurulması effektindən istifadə edir.

Təsviri sənətin ən mürəkkəb növü olan monumental təsvirə müraciəti və bu istiqamətdə böyük uğur qazanması nəticəsində Nərimanbəyov həmçinin səhnə tərtibatçısı kimi də fəaliyyət göstərib. Böyük Azərbaycan bəstəkarı Fikrət Əmirovla birlikdə "Sevil"operası, "Nəsimi" və "1001 gecə", Qara Qarayevin "Yeddi gözəl", Fərəc Qarayevin "Qobustan kölgələri" baletlərinin üzərində Nərimanbəyov parlaq kolorit baxımından dolğun dekorasiya kompozisiyaları hazırlayıb. Rəssam Milli Məclisin binasında da monumental divar rəsmləri çəkmişdir.

Toğrul müəllim italyan musiqisini və Azərbaycan muğamını



Sehrli nar dünyası



"Muğam" kompozisiyası



"Qədim Bakı"



"Nar ağacı xurcun ilə"



"Buzovnada toy"

çox sevirdi. Cordano Puççini kimi bəstəkarların ariyalarını oxuyanda pərəstişkarları heyran qalırdı. Əgər rəssam olmasaydı, mütləq müğənniliyi seçəcəyi şübhəsizdir. Heç də təsadüfi deyil ki, dahi Azərbaycan bəstəkarı Fikrət Əmirov demişdir: "Biz böyük müğənni itirmişik". Bülbül də onun səsini bəyənirdi.

Sənətkar doğma Bakını çox sevir, əsərlərində xüsusilə Abşeronu, onun bağlarını, dənizini, meyvələrini canlandırırdı. "Bakı", "Qız qalası", "Bakıda bahar" tablolarında qədim və gözəl paytaxtımızın hər fəsildə gözəlliyini təsvir edib. T.Nərimanbəyovun "Bakı bağlarında" yayda insanların istirahəti, bir süfrə başına toplaşmaları, şirin söhbətləri samovar çayının təsviri fonunda daha qabarıq verilib. Əsərdə insanlar öz dərdlərini uca bir tut ağacının altındakı masa ətrafında danışırlar. "Bakıda bazar" kompozisiyasında isə qızğın paytaxt bazarı, insanların daha sıx toplaşdığı məkan təsvir edilib. Qadınlar başları bağlı, kişilər isə papaqla təsvir edilib. Ən çox diqqəti çəkən qucağı körpəli anaya bir şəxsin köməkliyi səhnəsidir. Bu da Bakı əhalisinin bir-birinə hörmətini göstərir. Bazardakı dinamika əsas planda verilib. "Bakıda küləkli gün" (1974) tablosunda da sənətkar küləklər şəhərini təsvir edib. Major notlarıyla coşan dəniz dinamik musiqi diliylə desək, ***cresendo***-ya (səsin artırılması) uyğun əks olunub. Buludlar da şəhəri bəzəyir. "Bakıda bahar" əsərində isə sənətkar çox sevdiyi şəhəri tarixi abidələriylə birlikdə yağlı boya ilə kətanda işləyib.

Toğrul Nərimanbəyovun rəngləri sanki simfoniyadır. O, Rəsul Rzanın "Rənglər" şeir kitabının illüstrasiyalarının da müəllifidir. Rəssam şairdən fərqli olaraq rənglərin mənasını belə açıqlayır: "Rəngi eşitmək olar və rəng də musiqi kimidir. Rəng mübarizədir – kompozisiya kimidir. Musiqidə olduğu kimi rənglər də improvizasiyanı sevir. Sənətkar mavi rəngi istirahət, rahatlıq, yaşıl rəngi tamam sakitləşdirici, bənövşəyi rəngi isə kədərli dünya adlandırır. Onun rənglər dünyası ikisəsli xoru xatırladır. Ən sevimli rəngi qırmızıdır, bu rəng insanı ehtiraslandırır və əhvalını qaldırır.

Bir çox əsərlərində narın təsviri var. Göyçay narı T.Nərinanbəyov yaradıcılığında sanki nağıllarımızdakı təki sehrlidir. Nar gözəllikdir, fortedir, sanki bir güc, qüvvə kimi təsvir olunub və ondan simvolik mənada istifadə edilir. "Nar ağacı xurcun ilə", "Sevincli gün", "Nar və armud" və s. bu qəbildəndir.

**Sənətkar öz portretləriylə də məşhurdur. Çəkdiklərində əsasən, psixoloji xüsusiyyətlər, məşhur insanların təsvirləri verilib. Onun "Zəhra", "Xanəndə Bülbülün portreti", "Müğənni Yavər Kələntərli" və s. əsərləri, əsasən, karandaşla çəkilib. Toğrul Nərimanbəyovun yaradıcılığı Şərqlə Qərbin sintezidir, burada Azərbaycan və fransız incəsənətinin qarşılıqlı əlaqəsini görürük.**

Dahi rəssamın əsərləri dostluq, ünsiyyət, bayram tərənnümçüsüdür. Onların əsas bəzəyi günəşdir və Allahın yaratdığı gözəlliklərdir. Fırça, səs, qələm - bunlar Toğrul Nərimanbəyov yaradıcılığının mənzərəsini əks etdirən ən vacib amillərdir. Xalq şairi Fikrət Qoca sənətkarın poeziya nümunələrini tərcümə edib. Onlardan ən maraqlısı sanki artan səslə fəxrlə Bakının rəmzi sayılan Qız qalası haqqındadır:

Qız qalası!
İşığın kölgəsini geyib qaralmısan,
Kürəyini küləyə söykəyib qalmısan.
Günəş ətri gəlir səndən,
Sən bütün əsrlərin canlı şahidisən!

Emil Ağayev

**Ədəbiyyat:**

1 Əsmər Abdullayeva. Toğrul Nərimanbəyov. "Sərvət". Şərq-Qərb Nəşriyyat evi. Bakı, 2013
2 Möhbəddin Səməd. "Sözlə çəkilən portret", "Yaddaşımın yaşıdları" kitabı. Bakı, 2002.
3 M. Səməd. "Paris Passi məzarlığı və Toğrul Nərimanbəyov haqqında düşüncələr". "Kaspi" qəzeti. 2014-cü il, 29 noyabr. "Milliliklə bəşəriliyin harmoniyası". "Azərbaycan" qəzeti. 2008-ci il, 28 sentyabr.